**AZƏRBAYCAN RESPUBLİKASI**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

# SƏRƏNCAMI

**№ 23** **8 fevral 2016-cı il**

## Binəqədi Rayon İcra Hakimiyyətinin Apellyasiya Şurasının üzvlərinin və Katibliyin tərkibinin təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli Fərmanında yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması tapşırılmışdır. Sözügedən Fərmanın icrası ilə əlaqədar olaraq Binəqədi Rayon İcra Hakimiyyəti başçısının "Binəqədi Rayon İcra Hakimiyyətinin Apellyasiya Şurasının yaradılması haqqında" 5 fevral 2016-cı il tarxili 19 nömrəli sərəncamı ilə Apellyasiya Şurası yaradılmış və Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov Şuranın sədri təyin edilmişdir.

Binəqədi Rayon İcra Hakimiyyətində Apellyasiya Şurasının üzvlərinin və Katibliyin tərkibinin təsdiq edilməsi məqsədi ilə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci bəndini rəhbər tutaraq

**Qərara alıram:**

1. Apellyasiya Şurasının sədri İlqar Süleymanovun Şuranın üzvləri və Katibliyin tərkibi barədə təklifləri nəzərə alınsın və Apellyasiya Şurasının tərkibi aşağıdakı kimi təsdiq edilsin:

**Apellyasiya Şurasının üzvləri:**

Yunis Hüseynov – Hüquq şöbəsinin müdiri;

Ramiz Göyüşov – Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri;

Elşad Rəhimov – Rayon təsərrüfatı şöbəsinin müdiri vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən;

Yəhya Əliyev – Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri;

Elman Dadaşov – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri;

Mübariz Məmmədov – Rayon İcra Hakimiyyəti başçısının Rəsulzadə qəsəbəsi üzrə nümayəndəsi.

**Apellyasiya Şurasının Katibliyi:**

Katibliyin rəhbəri **–** Elnur İmanov – Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri.

**Katibliyin üzvləri:**

Tural Əliyev – Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin məsləhətçisi (vətəndaşların müraciətləri üzrə işin aparıcısı);

Rövşən Aşırov – Hüquq şöbəsinin məsləhətçisi.

2. Binəqədi Rayon İcra Hakimiyyətinin Apellyasiya Şurasına tapşırılsın:

- Şuranın fəaliyyətinin Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin tələblərinə uyğun şəkildə qurulmasını təmin etsin;
- Şuranın iclasları, iclaslarda baxılan məsələlər və qəbul edilmiş qərarlar barədə məlumatların Rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində və kütləvi informasiya vasitələrində yayılmasını təmin etsin.

3. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Xaləddin İsgəndərov**

**ƏSLİ İLƏ DÜZDÜR**

**Sənədlərlə və vətəndaşların**
**müraciətləri ilə iş şöbəsinin müdiri** **Elnur İmanov**